# Mənim adım Müslümdür

Qərib Mehdi



(əvvəli ötən sayımızda)

(xatirə-hekayə)

***Bəs Qəbələ çağdaş dövrdə cəmiyyətə kimləri bəxş etmişdir? Xeyli adlar saymaq olardı. Bu sayın içində hərbçi polkovnik Məmmədhüseynovun da adını çəkmək yerinə düşərdi. Həm də ona görə ki, qəbələli polkovnik Gəncədəki hərbi komissarlığa rəhbərlik edirdi. Bu seçilən ad Müslüm əminin yaddaşında özünə möhkəm yer eləmişdi. Necə ola bilərdi ki, iki qəbələli (Müslüm əmi özünü həm də qəbələli hesab edirdi) görüşüb qırılmaz ünsiyyət qurmasın? Taksi sürücüsü tələsməyə ehtiyac görmürdü. Təbii şərait yeri gələndə, zamanı yetişəndə bu məsələni həll edəcəkdi.***



Mənim qeyri-qanuni hərbi xidmətə çağırılmağım, anamın həyəcanları bu məsələnin həllinə açar oldu. Müslüm əmi qərara aldı ki, mənim zorakılığa məruz qalmış məsələmi elə həmin sahənin birinci şəxsi ilə həll etsin. Qəbələli Məmmədhüseynovun insani keyfiyyətlərinə bələd olsun. Görsün ki, onunla öyünmək olar, ya yox. Həm də o, məsələni tanışlıq, yerliçilik yox, ədalət müstəvisində həll etmək istəyirdi.

O vaxtın Sovet hökuməti adının nə qoyulmasından asılı olmayaraq, mahiyyətinə, siyasi niyyətlərinə görə sonuncu imperiya idi. Bu imperiya tədricən aşınırdı. Xalqları güc vasitəsilə nə qədər əsarətdə saxlamaq olardı? İlkin olaraq Şərqi Avropanın sosialist ölkələrində – Macarıstanda, Çexoslovakiyada, sonralar Polşada baş qaldıran müqavimətlər, üsyanlar qan içində boğulurdu. Ailələr ölkənin içindən və dışından əsgər tabutları alırdılar. Belə bir şəraitdə Qərib Mehdiyev – anasının yeganə balası hərbi xidmətə çağırılmışdı.

Müslüm əmi kamali-ədəblə astadan böyük kabinetin qapısını taqqıldadır. Sonra içəri keçir. Yeriyib başda oturan komissara ərklə əl uzadıb özünü təqdim edir:

– Qəbələnin çörəyini yeyib dirçələn, indisə Gəncədə yaşayan taksi şoferi Müslüm kişi!.. Bilirəm ki, siz də Qəbələnin yetirməsi polkovnik Məmmədhüseynovsunuz. Həmyerli sayıla bilərik.

Komissar birbaşa deyimdən həm razı qalır, həm də narazı. O, təcrübədən bilir ki, belə düzünəqulu adamlardan ehtiyat etmək lazımdır. Yarılası baş tənzifi özü ilə gəzdirməlidir. Şahmat dili ilə desəm, şah piyadanın debatını qəbul edir:

– Tutalım, ikimiz də qəbələliyik. Xahişini həmyerlilik üstündə həll etmək istəyirsən?

– Yox, – deyə Müslüm əmi cavab verir.

Komissar təzyiqi davam etdirir:

– Bəs onda səni necə başa düşüm?

Təhsilsiz sürücü atını məntiq meydanına sürür:

– Mən həmyerliliyi əyintiyə, qanunsuzluğu qapı açmaq kimi qəbul etmirəm. Həmyerlilik mehribanlığı, səmimiyyəti, qarşılıqlı inamı artıran əlamətdir. Belə olduğu halda, onun nəyi pisdir?

Polkovnik araşdırmanı davam etdirir:

– Sən Qəbələyə gəlməsən? Yoxsa...

Müslüm əmi heç nəyi örtülü saxlamır:

– 1918-ci ildə ermənilər daha amansız deportasiyalara əl atdılar. Bizimkilərdən qırılan qırıldı, sağ qalanlar qaçqın düşdü. Mən də Qəbələyə pənah gətirdim. O gündən oldum qəbələli. Sadə və zəhmətkeş insanlarını sevdim, dostlaşdıq, qaynayıb-qarışdıq. Xahişinə gəldiyim oğlan – dayım oğlu Qərib Mehdiyev də Qəbələdə doğulub. İndisə hamımız Gəncədə yaşayırıq. Ancaq Qəbələ ilə əlaqəmizi kəsmirik. Biləndə ki, siz də qəbələlisiniz, çox sevindim.

Nələrisə göz önünə gətirən komissar dərindən nəfəs alır, ondan nə xahiş olunacağını düşünür. Təki hərbi xidmətdən yayınma məsələsi olmasın. O, xüsusilə bu sahədə yerlilərinə güzəştə getmirmiş. Yerliçiliyi əsas gətirməklə vəzifəliləri asan vururdular. Məmmədhüseynov deyir:

– Sən boşuna gəlməyibsən. Məqsədin tanış olmaqdır, yoxsa bir xahişin var?

***– Hər ikisi ilə bağlı gəlmişəm – həm tanış olmaq, həm də xahişimi çatdırmaq.***

***– De gəlsin. Vaxtımın azlığını nəzərə al – qısa və konkret. Gücüm çatsa, köməyimi əsirgəmərəm.***

***Müslüm əmi təklifdən sevinir və sözə başlayır:***

***– Adını çəkdiyim dayım oğlunun hərbi xidmət yaşı çatıb.***

***Komissar:***

***– Onda, sözsüz vətənə xidmət etməlidir.***

***Müslüm əmi:***

***– Onu başa düşürəm. İş burasındadır ki, o gənc ailənin yeganə uşağıdır, bir ana, bir baladılar. Hərbi mükəlləfiyyətin qaydasını öyrənmişəm: ailənin bir övladı varsa, o övlad hərbi xidmətdən azaddır. Ancaq sahə xidmətçiniz iki gündən bir çağırış vərəqəsi ilə qapını döyür. Bu barədə sizdən kömək umuram.***

Xahişi eşidən komissar hirslə ayağa durur. O, məsələni qanuni şəkildə çözmək əvəzinə, tələsik həmyerlisinin xahişini rədd edir:

– Qanuni oldu-olmadı, mən qəbələlilər tərəfindən olunan xahişi rədd edirəm. Belə şeylərə uysam, axırda məni yerliçiliklə suçlayacaqlar.

Müslüm əmi də sinirlənir:

– Mən əyintiyə yol versəm, ədalətin pozulmasına qarşı durmağınızı istəyərəm. Çağırış vərəqəsi gətirəni yaxşı tanıyıram: ya umacağı var, ya da Qəribi qəribçiliyə salıb kiminsə yerinə hərbi xidmətə göndərməyə çalışır.

Polkovnik səbir göstərib məsələni aydınlaşdırmaq əvəzinə, yanlış mövqeyinin üstündə durur:

– Yetən elə ailənin yeganə uşağından danışır. Bəs hərbi xidmətə kim gedəcək? Bəs bu boyda vətənin sərhədlərini, təhlükəsizliyini kim qoruyacaq?

Müslüm əmi komissarın yersiz tələsik qərarına bir də nəzər yetirməyini istəyir. Vəziyyətin necə acınacaqlı olduğunu bir daha dilə gətirir. Bəlkə, komissarın qəlbi yumşala:

– Dürsədəf – Qəribin anası dünyaya altı uşaq gətirib. Əzrail onların beşini qara torpağa gömüb. İndi bütün ümidini yeganə oğluna – Qəribə bağlayıb. Hamı əsgərlikdən sanılı qoz kimi salamatmı qayıdır? Ölkə içindən və xaricdən gələn əsgər tabutlarını görmürükmü?

Eşitdiklərindən diksinən komissar yenə kor atı minib köndələn çapır:

– Sən nə danışdığının fərqindəsənmi? Yox, mən dayın oğlunu hərbi xidmətə göndərəcəyəm.

Müslüm əmi qeyzli səsini həmkarının səsindən də yuxarı qaldırır:

– Mən də Qəribi havayı qurbanlıq kimi sizə və sizin hökümətinizə verməyəcəyəm.

Mübahisəli söhbət bitir. Müslüm əmi ümid bəslədiyi qapını çırpıb komissarın otağını tərk edir.

Sonralar hərbi xidmətə çağırış vərəqi ilə qapımızı döymədilər. Anamın aramsız axıtdığı göz yaşları qurudu. Deyirlər, hirsli başda ağıl olmaz. Yəqin hərbi komissar inadının yersiz olduğunu anlamışdı. Münasibəti qaydaya salmaq üçün nə Müslüm əmi geri döndü, nə də komissar yanlış mövqeyini etiraf etdi. Aracılıq etmək zamanın öhdəsində qaldı. Bəs o zaman, nə vaxt gələcək? Tələsməyək...

***

Yuxarıda dediyim kimi, Müslüm əmi yük maşınında – «QAZ-51»də yaxın-uzaq yerlərə mal daşıyırdı. O, əsasən, yükünü yaxşı tanıdığı, insanlarına yaxşı bələd olduğu almalı-heyvalı, qozlu-fındıqlı, şabalıdlı Qəbələdən tədarük edirdi. Və ehtiyac duyduqda «QAZ-51»nə bir «qamçı» vurub doğma yurda – Qəbələyə yola düşürdü. Yanında Kərim adlı köməkçisi də vardı.

Günlərin birində yenə yolunu Qəbələdən saldı. Adətiydi, ana yoldan burulub rayon mərkəzinə sarı üz tutanda, maşını saxlayar, evlərinə çatmaq üçün minik gözləyən adamların ayağını yerdən üzərdi. Həm də təmənnasız. Yolçular onun bu xidmətinə görə dönə-dönə təşəkkürlərini bildirərdilər.

Bu dəfə də elə oldu. Kəndlilər geyimindən tanınırdı. Rayona qonaq gələn də geyimindən seçilirdi. Sürücü adamlara diqqət yetirdi. Boy-buxunlu, şıq geyimli, başı panamalı birisi digərlərindən seçilirdi. Maşın dayanan kimi seçilən də, seçilməyənlər də kuzova – boş yük yerinə doluşdular. Mənzil başına çatanda təmənnasız xidmətdən yararlananlar sürücüyə minnətdarlıq edərək, çıxıb işlərinin dalınca getdilər. Əlbəttə, şıq geyimli cavan da.

Müslüm əmi həmişə mənzilləndiyi dost-qonaqçı evinə düşmüşdü. Səhər mal yüklənəcəkdi. O, köməkçisi Kərimə göstəriş verdi ki, maşının kuzovunu sahmana salsın. Kərim bir azdan geri dönüb Müslüm əmi ilə işarə ilə – qaş-gözlə danışmağa girişdi. Sürücü dərhal hiss etdi ki, nəsə qeyri-adi hadisə baş verib.

Bir kənara çəkildilər. Sevincdən rəngi allanmış Kərim əlində gizlin tutduğu bir sənədi – ali təhsil haqqında diplomu Müslüm əmiyə verdi. Diplomun arasında da 10 dənə şaxlı yüzlük pul. Kərim dili dolaşa-dolaşa dedi:

– Maşını təmizləyəndə tapdım! Bizimki gətirdi. Heç mal satışından bu qədər qazancımız olmazdı. Özünüz bildiyiniz kimi, bölərsiniz. Mənim payıma da nə düşər-düşər. Sənədi saxlamaq sizlikdir. İstəyirsiniz, saxlayın. İstəyirsiniz, atın getsin.

Tapıntıdan heyrətlənən Müslüm əmi köməkçisini yanlış fikrindən daşındırdı:

– Günaha batma. Əmanətə xəyanət olmaz. Sənədi qoruyub saxlayaq. Nə vaxtsa yiyəsi çıxıb itiyini axtaracaq. Onda diplomu pul ilə birlikdə sahibinə verib, əvəzində «sağ ol!» alarıq. Bu «sağ ol!»un qiyməti ölçüyəgəlməz olacaq.

Kərim cavabdan məyuslansa da, deyilənlə barışmalı oldu. Axşam qonaq ev sahibini vəziyyətdən hali etdi:

***– Kiminsə qiymətli sənədi – ali məktəbi bitirmək haqqında diplomu maşında qalıb. Yəqin rayona gələnlərdən olacaq. Sənəd məndədir. Soraqlaşan olsa, ünvanımı deyərsən: Gəncə şəhəri, Abdulla Şaiq küçəsi, 2. Etibarlı əldədir. Sahibi tapılana qədər sənədi qoruyacağam. İş yerimi də bilirsən: şəhər taksi parkının şoferiyəm: Müslüm Cəlil oğlu Məmmədov.***



***Bundan sonra gərgin axtarış-soraq başlanır və nəticə verir. Sən demə, sənəd itirən kəs Lomonosov adına Moskva Dövlət Universitetinin məzunu imiş. Yaxşı ki, diplom da salamat durur, pulu da. İndi onu sahibinə qaytarmaq lazımdır. Necə? Kimin vasitəçiliyi, köməkliyilə? Onu da biləcəyik.***

***Taksi parkının direktoru işçisi Müslüm Məmmədovu yanına çağırtdırıb deyir:***

***– Şəhər hərbi komissarlığının rəhbəri mənə zəng vurub xahiş etdi ki, siz onun yanına dəyəsiniz.***

(ardı gələn sayımızda)